**Suleymanov M.S.♦**

## Education is darkness, illiteracy is light...

**Abstract:** The complete removal of education from state control and the liquidation of free schools makes knowledge inaccessible, destroys the educative function of education and turns schools into business projects. In addition, class contradictions are flowing into an open phase. And if earlier we saw how adults compete for jobs, now we will witness how children will fight for the right to study in private schools.

**Keywords:** school; education; culture; consumption; state.

### References

1. Naomi Klein. The Shock Doctrine: The Rise of Disaster Capitalism. Holt Paperback, 2008, 720 p.

2. Veronique de Rugy, Kathryn G. Newmark. Hope After Katrina. Available at: https://www.aei.org/articles/hope-after-katrina/

3. Trump signs executive order to dismantle Department of Education. Columbia Spectator Available at: https://www.columbiaspectator.com/news/2025/03/26/trump-signs-executive-order-to-dismantle-department-of-education/

4. Remarks of senator John F. Kennedy at the teachers' association convention, Baltimore, Maryland, October 10, 1957 Available at: https://www.jfklibrary.org/archives/other-resources/john-f-kennedy-speeches/baltimore-md-19571010

5. An Overview of the U.S. Department of Education. Available at: https://www.ed.gov/about/ed-overview/an-overview-of-the-us-department-of-education--pg-1

6. Samuel Bowles and Herbert Gintis. Schooling in Capitalist America: Educational Reform and the Contradictions of Economic Life. New York: Basic Book, 340 p.

7. Arnold V.I. New obscurantism and Russian education. Moscow, Fazis Publ., 2003. 60 p. (in Russian).

**Süleymanov M.S.♦**

## Təhsil - zülmətdir, savadsızlıq - işıq...

**Xülasə:** Təhsilin dövlət nəzarətindən tamamilə çıxarılması və pulsuz məktəblərin ləğvi biliyin əlçatanlığını və təhsilin tərbiyəvi funksiyasını yox edir, məktəbləri isə biznes layihəsinə çevirir. Üstəlik, sinfi ziddiyyətlər də açıq fazaya keçir. Yaşlılar iş yerləri uğrunda necə rəqabətə girirsə, uşaqların da xüsusi məktəblərdə oxumaq uğrunda rəqabətinin şahidi oluruq.

**Açar sözlər:** məktəb; təhsil; mədəniyyət; istehlak; dövlət.

♦**Suleymanov Mammad Suleyman oglu** – publicist (Azerbaijan). E-mail: sandinist17@gmail.com
♦ **Süleymanov Məmməd Süleyman oglu** – publisist (Azərbaycan). E-mail: sandinist17@gmail.com

Sosioloq Naomi Klyayn özünün məşhur "Şok doktrinası" kitabında 2005-ci ildə ABŞ-ın Yeni Orlean şəhərində baş vermiş dəhşətli "Katrina" qasırğası ilə bağlı maraqlı bir epizodu təsvir edir.

Qasırğadan bir qədər sonra neoliberalların patriarxı, 93 yaşlı Milton Fridman Wall Street Journal-da məqalə yazaraq fəlakətin kapitalizm üçün necə yeni imkanlar açdığını tərifləyir. " Yeni Orleanda məktəblər və orada oxuyan şagirdlərin evləri dağılıb. Bu, faciədir. Eyni zamanda da böyük imkanlardır", Fridman yazır.

Fridman nə təklif edir? Yeni Orleanda pulsuz məktəb təhsili sisteminin bərpasına milyardlarla dollar xərcləmək əvəzinə, dövlət məktəblilərin ailələrinə vauçerlər versin və şagirdlər şəxsi təhsil müəssisələrində oxumağa məcbur olsun. Yəni, dövlət məktəbləri biznes mərkəzlər kimi fəaliyyət göstərən şəxsi təhsil müəssisələri ilə əvəzlənsin [1].

Maraqlıdır ki, facəidən 20 ay sonra belə evlər, enerji təminatı və infrastukturlar tısbağa sürəti ilə bərpa olunduğu halda, Yeni Orleanın məktəb sisteminin hərraca çıxarılıb satılması əsl hərbi dəqiqlik və sürətlə həyata keçirildi. Əhalinin çoxu hələ də sığınacaqlarda yaşayırdı, ancaq pulsuz təhsil sistemi tamamilə şəxsi məktəblərlə əvəzlənmişdi.

Elə həmin vaxt ABŞ sahibkarlıq institutu Fridmanın ardınca fəxrlə bildirirdi: Luiziana ştatının məktəb islahatçılarının uzun illər edə bilmədiyini "Katrina" qasırğası bir günə etdi. Yəni, yaşasın fəlakət! Halbuki, əslində baş verənlər ictimai mülkiyyətə qarşı yaxşı təşkil olunmuş reyder reysindən başqa bir şey deyildi [2].

Sonunda pulsuz təhsil ləğv olundu, məktəblər dövlətin əlindən alındı və bu hadisə kapitalizmin fəlakətlər sistemi olduğuna daha bir təsdiq oldu. Müharibələr və fəlakətlər bu sistemin ərzağı və qan damarıdır.

O hadisələrdən 20 il keçdi və bu gün Fridman sağ olsaydı, bəlkə də deyərdi: "Katrina"nın nail ola bilmədiyinə Donald Tramp bir imza ilə nail oldu [3]. Söhbət ABŞ prezidentinin Təhsil nazirliyini ləğv etməyindən gedir. Forma fərqlidir, məzmun isə eyni. Tramp bir fərmanla təhsilin dövlətin nəzarətindən çıxarılmasına nail olmaqda bu sahəni vur-tut biznes layihəsi, məktəbləri isə supermarket kimi gördüyünü təsdiqlədi. Əslində, dağıdılmış Qəzzaya gələcək kurort kimi baxanda, bunu görmək olardı.

Nə vaxtsa Con Kennedi "Biz Kosmosu Sovetlərə məktəb partası arxasında uduzduq" demişdi [4]. İndi o fikri kim xatırlayır ki?! Necə ki, Komenskinin, Makarenkonun, Suxomlinskinin adları xatırlanmır. Təhsil müəssisələri isə supermarket kimi iaşə obyektinə çevrilib. Sadəcə, supermarketdən fərqli olaraq, məktəb və universitetlərin təklif etdiyi xidmətin əhəmiyyəti olduqca şübhəli və qeyri-müəyyəndir.

Tramp fərmanını martın 20-də Ağ Evin Şərq otağında parta arxasında əyləşmiş məktəblilərin iştirakı ilə imzaladı - bu da simvolikdir. Təhsilin tabutuna mismar məktəblilərin şən zarafatları fonunda çalındı. Düzdür, Nazirliyin tamamilə ləğv olunması üçün ABŞ Konqresi senatının 100 üzvündən 60-nın lehinə səs verməsi lazımdır, ancaq hər şey plana uyğun gedir. Bu yeni trendin tezliklə dünyanın dörd tərəfinə yayılacağı da istisna deyil [3].

ABŞ Təhsil nazirliyi 100 minə yaxın dövlət və 34 min xüsusi məktəbə nəzarət edirdi. Tələbə istiqrazları da nazirliyin səlahiyyətinə daxil idi - həmin istiqrazlardan universitetdə təhsil xərclərini ödəmək üçün 10 milyonlarla amerikalı yararlanırdı [5].

Məlumdur ki, təhsil sistemi və məktəblər vakuumda mövcud deyil. Məktəb ictimai institutdur və təbii ki, hakim sinif onun imkanlarından özü üçün sərfəli vətəndaşları yetişdirmək üçün istifadə edir.

Sosioloqlar Semyuel Boulz və Herbert Gintis özlərinin “Kapitalist Amerikasında məktəb təhsili” kitabında yazırdı: “Kapitalist sistemində təhsilin əsas funksiyası kapitalist iqtisadiyyatı üçün hazırlıqlı kadrların yetişdirilməsidir”. İlk baxışda elə görünə bilər ki, bu fikirdə qorxulu heç nə yoxdur. Ancaq qorxulu odur ki, insan bazar üçün “yonulur”, təhsil şəxsiyyətin formalaşmasına və özünütəsdiqinə xidmət etmir. Baxmayaraq ki, təhsilin istehlak sahəsinə çevrildilməsini gözəl sözlərlə pərdələyirlər. Məsələn, təkrarlayırlar ki, insan şəxsi keyfiyyətlərini peşə uğurunun qazanılmasına uyğunlaşdırmalıdır, halbuki tərsinə olmalıdır - iqtisadi və sosial nailiyyətlər insanın inkişafına yardım etməlidir.

Təhsilin dövlət nəzarətindən tamamilə çıxarılması və pulsuz məktəblərin ləğvi biliyin əlçatanlığını və təhsilin tərbiyəvi funksiyasını yox edir, məktəbləri isə biznes layihəsinə çevirir. Üstəlik, sinfi ziddiyyətlər də açıq fazaya keçir. Yaşlılar iş yerləri uğrunda necə rəqabətə girirsə, uşaqların da xüsusi məktəblərdə oxumaq uğrunda rəqabətinin şahidi oluruq. Yoxsulsansa, kənarda qalacaqsan. Bu nöqtədən obskurantizmin tam və qəti qələbəsinə aparıb çıxaran yol isə çox qısadır.

Boulz və Gintis haqlıdır: “Təhsil sahəsindəki sosial münasibətlərin strukturu əmək sahəsindəki münasibətlərin strukturuna uyğun gəlir” [6].

Sinifli cəmiyyətlərdə təhsilin sinfi mahiyyət daşıdığına daha bir misal çəkək. O, məşhur Sovet fiziki Vladimir Arnolda məxsusdur. Arnold “Yeni obskurantizm” məqaləsində yazırdı:

“Amerikalı həmkarlarım mənə izah etdilər ki, onların ölkəsində məktəb təhsilinin və ümumi mədəniyyətin aşağı səviyyəsi iqtisadi məqsədlərə çatmaq üçün şüurlu şəkildə əldə edilib. Məsələ ondadır ki, təhsilli insan pis istehlakçıdır: o, az əşya alır, Motsartı, Van Qoqu, Şekspiri və ya teoremləri əşyalardan üstün tutur. Bu isə istehlak cəmiyyətinin iqtisadiyyatına zərər vurur, varlıların gəlirini azaldır. Deməli, təhsil və mədəniyyətin səviyyəsinin yüksəlməsinin qarşısı alınmalıdır. Üstəlik intellektdən məhrum edilmiş əhalini manipulyasiyasiya alətinə çevirmək asandır...” [7].

## Biblioqrafiya

1. Naomi Klein. The Shock Doctrine: The Rise of Disaster Capitalism. Holt Paperback, 2008, 720 p.

2. Veronique de Rugy, Kathryn G. Newmark. Hope After Katrina [Elektron resurs]. https://www.aei.org/articles/hope-after-katrina/

3. Trump signs executive order to dismantle Department of Education. Columbia Spectator [Elektron resurs]. https://www.columbiaspectator.com/news/2025/03/26/trump-signs-executive-order-to-dismantle-department-of-education/

4. Remarks of senator John F. Kennedy at the teachers’ association convention, Baltimore, Maryland, October 10, 1957 [Elektron resurs]. https://www.jfklibrary.org/archives/other-resources/john-f-kennedy-speeches/baltimore-md-19571010

5. An Overview of the U.S. Department of Education [Elektron resurs]. https://www.ed.gov/about/ed-overview/an-overview-of-the-us-department-of-education--pg-1

6. Samuel Bowles and Herbert Gintis. Schooling in Capitalist America: Educational Reform and the Contradictions of Economic Life. New York: Basic Book, 340 p.

7. Арнольд В.И. Новый обскурантизм и Российское просвещение. – М.: Фазис, 2003. – 60 с.

Сулейманов М.С.♦

**Образование – тьма, неграмотность – свет…**

**Аннотация:** Полное изъятие образования из-под контроля государства и ликвидация бесплатных школ делает знания недоступными, уничтожает воспитательную функцию обучения и превращает школы в бизнес-проекты. Кроме того, классовые противоречия перетекают в открытую фазу. И если раньше мы видели, как взрослые конкурируют за рабочие места, то сейчас станем свидетелями того, как дети станут бороться за право учиться в частных школах.

**Ключевые слова:** школа; образование; культура; потребление; государство.

♦ **Сулейманов Мамед Сулейман оглы** – публицист (Азербайджан). E-mail: sandinist17@gmail.com